# Ruslanın Vətən sevgisi

***Şanlı tariximizin unudulmaz səhifəsinə çevrilən İkinci Qarabağ müharibəsində haqq savaşımızda Astara rayon, Ərçivan qəsəbəsində dünyaya göz açmış Ruslan Aslan oğlu Əliyevin də xüsusi payı vardır. Odur ki, Vətən naminə son nəfəsinədək düşmənlə döyüşən igidimiz cismən aramızda olmasa da, mənən diri qalaraq harada bir Günəş müqəddəsliyi var onun sorağı oradan gəlir. Qərinələr boyunca da belə olacaqdır. Hər gələn nəsil Vətəni, doğma torpağı necə sevməyi Ruslandan öyrənər.***



Lap kiçik yaşlardan Vətəninə, yurduna sevdalanan Ruslan orta məktəbdə oxuduğu vaxt həm də Astara Boks Mərkəzində bu idmanla məşğul olur, təlim məşqlərində, rayon və respublika yarışlarında müntəzəm iştirak edir, qazandığı uğurlar el-obada hamının ürəyindən xəbər verir. Boks üzrə Azərbaycan çempionatında ikiqat gümüş və bürünc medalçısı, Azərbaycan yığma komandasının ən sanballı üzvü kimi yaxşı tanınır. Hər dəfə də işğal olunan Vətən torpaqlarını azad görmək arzusu ilə yarışlara qatılır. 2018-ci ildə əsgərlik yaşına çatanda qəlbində erməni dığalardan intiqam, qisas almaq alovu daha da güclənir...

Ruslan Goranboyda, Tərtər bölgəsində müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirir. Nümunəvi xidməti, təlimlər zamanı əla döyüş keyfiyyətləri onu əsgərlərin, komandirlərin gözündə ucaldır. Hər an silaha sarılıb Vətən torpaqların azadlığı naminə döyüşə hazır olur. Həqiqi xidməti üzüağ başa vuran igid əsgər Ruslanın erməni faşistlərə qarşı vuruşmaq arzusu onu yenidən hərbiyə bağlayır. Sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda "Təki Vətən yaşasın"- deyib ən ağır döyüşə girir. Mərdliklə vuruşur, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etməklə odun-alovun içindən qalib əsgər kimi çıxır. Ruslanın son savaşı 29 sentyabrda Tərtərin Talış kəndində olur. Əsl qəhrəmanlıq nümunəsini göstərən igid ağır yaralanır, Vətən eşqli ürəyi dayanır. Ömrünün 20 ilində qalib şəhid kimi ölməzliyə qovuşur. Adında bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadan şəhid Ruslan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalına layiq görülür.

***Zəfər Orucoğlu, AJB üzvü***

Unikal.- 2022- ci il.- 14 oktyabr.- S. 13.